# Qarabağ xanları

**Yarandığı tarixdən etibarən qısa bir müddət ərzində, Qarabağ xanlığı regionda əhəmiyyətli siyasi və iqtisadi təsirə malik olmuşdur. [Qarabag.com](Qarabag.com) xanlığın türk Cavanşir nəslindən olan hökmdarları və onların tarixə verdikləri töhfələr haqqında olan materialı təqdim edir.**

**Pənah-əli bəy (təxminən 1693 – 1759)** türk Cavanşirlər nəslindən idi.

1736-cı ildə Nadir şahı dəstəkləməyən Cavanşir nəsli Qarabağdan Xorasana köçürülmüşdür. Pənah əli bəyin qardaşı, Nadir şahın yanında eşikağası (adyutant) vəzifəsində xidmət edən, Fəzl-əli-bəy qətlə yetirilmiş, Pənah-əli bəy isə, öz həyatına görə narahat olaraq, ona yaxın olan insanlarla birlikdə, 1738-ci ildə Qarabağa qaçmışdır. [E.E. İsmayılov. Qafqaz və Qloballaşma. Cild 8, nəşr 1-2, 2014. Məqalə: Qarabağ xanları: nəslin mənşəyi, Xanlığın Rusiya imperatorluğuna tabe edilməsi. Səh. 146]

1747-ci ildə, Nadir şahın ölümündən sonra, Pənah-əli-bəy keçmiş Qarabağ bəylərbəyliyinin böyük bir hissəsini özünə tabe etmiş və Qarabağ xanlığını yaratmışdır. [E.E. İsmayılov. Qafqaz və Qloballaşma. Cild 8, nəşr 1-2, 2014. Məqalə: Qarabağ xanları: nəslin mənşəyi, Xanlığın Rusiya imperatorluğuna tabe edilməsi. Səh. 146]

1748-ci ildə, Pənah-əli-xan xanlığın ilk paytaxtını – Bayat qalasını inşa etdirmişdir. [E.E. İsmayılov. Qafqaz və Qloballaşma. Cild 8, nəşr 1-2, 2014. Məqalə: Qarabağ xanları: nəslin mənşəyi, Xanlığın Rusiya imperatorluğuna tabe edilməsi. Səh. 146]

Elə həmin il, Nadir şahın qardaşı oğlu, fars şahı Adil şah (1747 – 1748), onu Qarabağ xanı kimi qəbul etmişdir. [E.E. İsmayılov. Qafqaz və Qloballaşma. Cild 8, nəşr 1-2, 2014. Məqalə: Qarabağ xanları: nəslin mənşəyi, Xanlığın Rusiya

imperatorluğuna tabe edilməsi. Səh. 147]

1751/ 1752-ci ildə, Pənah-Əli-xan bütün sakinləri Bayatdan inşa etdirdiyi Şahbulaq qalasına köçürmüşdür.
[E.E. İsmayılov. Qafqaz və Qloballaşma. Cild 8, nəşr 1-2, 2014. Məqalə: Qarabağ xanları: nəslin mənşəyi, Xanlığın Rusiya imperatorluğuna tabe edilməsi. Səh. 147]

1750-1755 illərdə, Pənah-əli-xan Zəngəzuru Qarabağ xanlığına daxil edir.
[Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi. Bakı, 1959. Səh. 70]

1756-cı ildə, yeni Şuşa qalasının inşası tam başa çatdırıldıqda, xan Şahbulaq qalasının bütün sakinlərini oraya köçürdü. İlk vaxtlar bu şəhər, xanın şərəfinə Pənahabad adlandırılırdı
[E.E. İsmayılov. Qafqaz və Qloballaşma. Cild 8, nəşr 1-2, 2014. Məqalə: Qarabağ xanları: nəslin mənşəyi, Xanlığın Rusiya imperatorluğuna tabe edilməsi. Səh. 147]

Pənah-Əli xan 1759-cu ildə Şirazda vəfat edib. Ağdamda Qarabağ xanlarının ailə qəbiristanlığında dəfn olunub.
[E.E. İsmayılov. Qafqaz və Qloballaşma. Cild 8, nəşr 1-2, 2014. Məqalə: Qarabağ xanları: nəslin mənşəyi, Xanlığın Rusiya imperatorluğuna tabe edilməsi. Səh. 147-148]

**İbrahim Xəlil-xan (1732 – 1806),** 1759-cu ildən etibarən Qarabağ xanlığının hökmdarı, Pənah-Əli-xanın oğludur. Onun hakimiyyəti dövründə, Qarabağ xanlığı Azərbaycanın qüdrətli xanlıqlarından biri olmuşdur. 1796-cı ildə Qacarlar dövlətinin hökmdarı olmuş türk Qacar sülaləsindən olan Ağa Məhəmməd-xanın qoşunlarına qarşı mübarizə aparırdı.
[E.E. İsmayılov. Qafqaz və Qloballaşma. Cild 8, nəşr 1-2, 2014. Məqalə: Qarabağ xanları: nəslin mənşəyi, Xanlığın Rusiya imperatorluğuna tabe edilməsi. Səh. 148-149]

1768/ 1769-cu ildə, İbrahim Xəlil-xanın sərəncamı ilə, Şuşada sonralar qızı Gövhər Ağa tərəfindən bərpa edilmiş böyük Cümə

məscidi inşa edilmişdir.
[Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi. Bakı, 1959. Səhifə 101]

14 may 1805-ci ildə, İbrahim Xəlil-xan Kürəkçay müqaviləsini imzaladı ki, bu müqaviləyə əsasən, Qarabağ xanlığı Rusiya imperatorluğunun tabeçiliyinə keçdi.
[E.E. İsmayılov. Qafqaz və Qloballaşma. Cild 8, nəşr 3-4, 2014. Məqalə: Qarabağ xanları: Sülalənin böyük xəttinin nəsil təsviri Səh. 134]

8 iyul 1805-ci ildə, Rusiya imperatorunun fərmanı ilə, ona general- leytenant rütbəsi verilmişdir.
[E.E. İsmayılov. Qafqaz və Qloballaşma. Cild 8, nəşr 3-4, 2014. Məqalə: Qarabağ xanları: Sülalənin böyük xəttinin nəsil təsviri Səh. 135]

1806-cı ildə polkovnik- leytenant Lisaneviçin alayının yegərləri tərəfindən öldürüldü.
[E.E. İsmayılov. Qafqaz və Qloballaşma. Cild 8, nəşr 3-4, 2014. Məqalə: Qarabağ xanları: Sülalənin böyük xəttinin nəsil təsviri Səh. 135]

**Mehdi-Qulu-xan – (təxminən 1763, yaxud təxminən 1772 – 1845),** 1806-cı ildə, atası İbrahim Xəlil-xanın vəfatından sonra, hakimiyyətə gəlmişdir.

Bundan bir il öncə, ona 8 iyul 1805-ci ildə, Rusiya imperatorunun fərmanı ilə, general- mayor rütbəsi verilmişdir.
[E.E. İsmayılov. Qafqaz və Qloballaşma. Cild 8, nəşr 3-4, 2014. Məqalə: Qarabağ xanları: Sülalənin böyük xəttinin nəsil təsviri Səh. 137]

“Qafqazın, məqsədlərindən biri Azərbaycan xanlarını onların mülklərindən məhrum etmək olan, general Yermolov tərəfindən idarə edildiyi dövrdə (1816- 1827 illər), Mehdi-Qulu-xan, 21 noyabr 1822-ci ildə, fars torpaqlarına qaçmaq məcburiyyətində qalmışdır, daha sonra isə, 1822-ci ilin dekabr ayında, Qarabağda xan hakimiyyəti ləğv edildi”.

[E.E. İsmayılov. Qafqaz və Qloballaşma. Cild 8, nəşr 3-4, 2014. Məqalə: Qarabağ xanları: Sülalənin böyük xəttinin nəsil təsviri Səh. 138]

1827-ci ildə, o, Ağ Karvansaraya təqdim edildi. Daha sonra, onun general- mayor rütbəsi və şəxsi əmlakı geri qaytarıldı.
[E.E. İsmayılov. Qafqaz və Qloballaşma. Cild 8, nəşr 3-4, 2014. Məqalə: Qarabağ xanları: Sülalənin böyük xəttinin nəsil təsviri Səh. 138- 139]

Qarabağ xanı Mehdi-Qulu-xan 14 may 1845-ci ildə Ağdamda vəfat edib.
[E.E. İsmayılov. Qafqaz və Qloballaşma. Cild 8, nəşr 3-4, 2014. Məqalə: Qarabağ xanları: Sülalənin böyük xəttinin nəsil təsviri Səh. 139]